# Yaponiya ilə iqtisadi əlaqələr

## Yaponiya şirkətlərinin fəaliyyəti

Yaponiya şirkətləri Azərbaycanda enerji, elektrik enerjisi, ticarət, kənd təsərrüfatı, turizm, xidmət və digər sahələrdə aktiv fəaliyyət göstərir. Xüsusən, Yaponiya şirkətləri Azərbaycan iqtisadiyyatının aparıcı sahəsi olan neft sənayesinə uzun müddət töhvə vermişdir. Azəri-Çıraq-Günəşli neft yataqları blokunun işlənməsində İtochu və İNPEX şirkətləri də iştirak edir. 2017-ci ilin sentyabr ayında Azəri-Çıraq-Günəşli neft yataqları bloku üzrə hasilatın pay bölgüsü haqqında saziş 25 il müddətinə uzadılmışdır.

Bundan əlavə, Yaponiya şirkətləri qeyri-neft sektoruna da böyük maraq göstərir. Mütəmadi olaraq keçirilən Yaponiya-Azərbaycan İqtisadi Komitəsinin iclaslarında bu sahə üzrə əməkdaşlığın istiqamətləri barədə müzakirələr aparılır.

## Mübadilənin genişlənməsi

Yaponiyanın Azərbaycan Respublikasındakı səfirliyində Azərbaycan vətəndaşları üçün pulsuz viza verilməsi tətbiq olunur. Bir neçə ildir ki, viza verilməsi qaydalarının asanlaşdırılması üçün işlər aparılmış, 2018-ci ilin sentyabr ayında Yaponiya Xarici İşlər Naziri cənab Taro Kononun Azərbaycana səfərindən sonraviza prosedurları daha da asanlaşdırılmışdır. Bunun nəticəsində, Azərbaycan vətəndaşlarına verilən viza sayında artım müşahidə olunmaqdadır.

Yaponiya vətəndaşlarının Azərbaycana olan marağı da artmış, Azərbaycana səfər edən yaponların sayı da ildən-ilə artmaqdadır



Viza verilmə sayı



Azərbaycana səfər etmiş yaponların sayı

(Dövlət Statistika Komitəsi)